# Dönüş yaratmağa çalışırıq

**Elxan müəllimlə rəhbərlik etdiyi uşaq incəsənət məktəbində görüşdük. Yaman qayğılı idi. Bu da təsadüfi deyildi. Artıq dərs ilinə yekun vurulmuşdu. Qarşıda kollektivi intizar dolu günlər gözləyirdi: "Görəsən, builki məzunlardan neçə nəfəri ali və orta ixtisas məktəblərinə qəbul olunacaq?!"**

Məktəbin fəaliyyətindən danışmazdan öncə həmsöhbətimizlə oxucularımızı yaxından tanış etmək istəyirik. Cabbarov Elxan Cahangir oğlu 1959-cu ildə Daşkəsəndə anadan olub. Orta məktəbi bitirdikdən sonra Ağdam musiqi texnikumuna üz tutub. Hər şey uğurlu alınıb. Texnikumun tar şöbəsinə qəbul olunub.

Texnikumu bitirdikdən sonra hərbi xidmətə gedib. Ordu sıralarından qayıdan E.Cabbarov bir vaxt musiqi təhsilinə yiyələndiyi Daşkəsən Uşaq Musiqi Məktəbində (1985-ci ildən uşaq incəsənət məktəbi) tar müəllimi kimi əmək fəaliyyətinə başlayır.

O, uşaqlarda musiqi zövqünün formalaşmasında, tar ixtisasına yiyələnmələrində mühüm rol oynayır. 2006-cı ilin oktyabrında yaxşı işi nəzərə alınır və ona böyük etimad göstərilir, məktəbin direktoru təyin olunur.

- Məktəbimiz 1961-ci ildə fəaliyyətə başlayıb. Təbii ki, o zaman şagird və müəllim kontingenti indiki ilə müqayisədə çox az idi. Ancaq tədricən hər şey qaydasına düşməyə başladı. İxtisas siniflərinin sayı artırıldı. Nəhayət, 1985-ci ildə incəsənət məktəbi statusu aldıq.Hazırda məktəbimizdə 418 nəfər şagird təhsil alır. Onların fortepiano, tar, kamança, qarmon, nağara, saz,səs, rəssamlıq və xoreoqrafiya ixtisasları üzrə təlim-tərbiyəsi ilə 93 nəfər müəllim məşğul olur.

Məktəbimizin ixtiyarında 39 sinif otağı və 60 yerlik bir zal var. Hər il məktəbimizi 70 nəfər məzun bitirir. Onlar təhsillərini davam etdirmək üçün ayrı-ayrı ali və orta ixtisas məktəblərinə üz tuturlar. Məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi, müvafiq musiqi aləti, inventar və avadanlıqla təmin edilməsi daim diqqət mərkəzindədir. Hazırda istifadəmizdə 14 pianino, 1 royal, 2 tar, 1 saz, 3 nağara, 8 qarmon və 3 kamança var.

**Rayon tədbirlərində yaxından iştirak edirik. Bu fəallığa respublika səviyyəli festival və müsabiqələrdə də nail olmağa çalışırıq. Bu işdə qabaqcıl müəllimlərimiz Əsgər Talıbov, Xalidə Əliyeva, Nurəddin İsayev, Sabir Əliyev, Tural Qəmbərov, Orxan Tağıyev və başqalarına arxalanırıq...**

**B.ZAYRALIQIZI**